# UŞAQ VƏ GƏNCLƏRIN PEŞƏ ORİYENTASİYASINDA KİTABXANALARIN ROLU

**E.Y.ƏHMƏDOV**
*Bakı Dövlət Universiteti*

İnformasiyalaşdırılmış cəmiyyət kitabxana müəssisələrinin fəaliyyətində modernləşdirilmiş iş metodlarının tətbiqini tələb edir. Təbii ki, cəmiyyətin inkişaf dinamikası ona xas olan bütün fəaliyyət obyektlərinin modernləşdirilməsi səviyyəsi ilə müəyyənləşdirilir. Tədris müəssisələrinin özündə təhsil islahatları ilə bağlı gedən proseslər, kitabxana işində demokratikləşdirmə və avtomatlaşdırılma, onların fəaliyyətinə təsir edir bu və ya digər formada fəaliyyət sferasını dəyişir. Belə bir şəraitdə bilavasitə cəmiyyətin informasiyalaşdırılmasında yaxından iştirak edən onun informasiya təminatını ödəyən, həmişə tərəqqiyə, öyrənməyə, biliyə, inkişafa can atan insanın informasiya daşıyıcıları ilə əlaqəsi və ünsiyyətlərini təmin edən, bu mühüm işdə informasiyanın nəhəng okeanından faydalanmaqda ona kömək edən şəxsə böyük ehtiyac duyulmaqdadır. Bu şəxs kimdir? Onun cəmiyyətdəki mövqeyi nədən ibarətdir? Bu şəxs müasir dünyanın kitabxanalarını yaradan, onun fondunu formalaşdıran zəngin fonddan düzgün bəhrələnməyi bacaran, bu zəngin sərvətin oxuculara çatdırılmasını mürəkkəb psixoloji, texniki forma və üsullarını hazırlayan şəxsiyyətin yetkinləşməsində yaxından iştirak edən kitabxanalardır. Kitabxanaçı yüzlərlə peşəyə maraq yaratma qabiliyyətinə malik olan bir ülvi peşə sahibidir.

Respublika kitabxanalarında oxucu kontingentinə nəzər saldıqca müəyyən edə bilərik ki, uşaq və gənclər üstünlük təşkil edir. Buna təsir edən bir sıra amillər mövcuddur. Bəllidir ki, uşaq oxucuların əksəriyyəti məktəblilərdir.. Onların oxucu qismində kitabxanaya müraciəti məktəb proqramlarının yerinə yetirilməsi ilə bağlı həmçinin şəxsi maraqla bağlı olur. Gənclər, oxucu qrupu da təxminən eyni istiqamətdə müraciət edirlər. Belə ki, gənc oxucuların əksəriyyəti ali və orta ixtisas məktəbinin tələbələri, müxtəlif kollec, texniki və peşə təmayüllü məktəblərin şagirdləri və qismən də heç bir təhsil almayanlardır. Nəzərə almaq lazımdır ki, uşaq oxucularının dörd qrupu məlumdur. Kitabxana xidmətində meyar kimi oxucu qrupları və tərbiyə sistemi əsas rol oynayır. Gənc oxucular isə hələ ki, yaş qrupları üzrə müəyyənləşdirilmir. Yəni onlar konkret olaraq uşaq oxucusundan fərqli olaraq qruplara bölünmür və stabil olaraq gənc oxucu və ya gənclər formasında təzahür edir. Qeyd etdiyimiz kimi gənc oxucuların tipologiyasını ali təhsil alanlar, orta ixtisas təhsili

olanlar, hərbi xidmət keçənlər, kollecdə oxuyanlar və s. kimi bölgülər əsasında müəyyənləşdirmək olar.

Hazırda hər il orta məktəb məzunlarının çox böyük hissəsi öz gələcək talelərini ali məktəblə bağlayır, ali təhsil almağı özlərinin ən böyük arzusu hesab edirlər. Lakin ali məktəbdə təhsil illərində məlum olur ki, onların çoxu ixtisası təsadüfən seçib, seçdikləri ixtisas onları qane etmir. Nəticədə düşünmədən seçilən ixtisas ali məktəbdən axına səbəb olur. Uşaq və gənclər ali məktəbə qədər kitabxanadan istifadə edirlər. Kitabxana öz fəaliyyətində uşaq və gənclərə peşə seçimində düzgün istiqamət verməlidir. Bu işdə peşə oriyentasiyasının rolu çox böyükdür. Kitabxanada uşaq və gənclərin, peşə oriyentasiyası deyərkən cəmiyyətin tələblərinə, dövlətin mənafeyinə, oxucunun qabiliyyətinə uyğun olaraq peşə və ixtisasın müəyyənləşdirilməsinə təsir edən kitabxana-informasiya prosesi başa düşülür. Uşaq və gənclərin peşə oriyentasiyası uşaq və gənclər kitabxanasının fəaliyyətinin bu sahədə demək olar ki, ilk pilləsidir. Bu istiqamətdə uşaq və gənclərə xidmət edən kitabxanalar öz işini üç istiqamətdə qurmalıdır.

- müxtəlif peşələr haqqında informasiyanın kitabxanada əyani və şifahi yayılması;
- müxtəlif peşə və ixtisaslara maraq yaradılması;
- oxucunu öyrənərkən və ya oxuculara iş prosesində uşaq və gənclərin seçdiyi peşənin və ya ixtisasın onların marağına və qabiliyyət göstəricisinə yararlılığının müəyyənləşdirilməsi.

Bunun üçün uşaq və gənclərə xidmət edən kitabxanalar ümumtəhsil məktəbləri ilə əməkdaşlıq etməli, ali və orta ixtisas müəssisələrində kitabxana-informasiya prosesləri vasitəsilə şagirdlərin, tələbələrin ümumiyyətlə oxucuların peşə oriyentasiyasını peşə tərbiyyəsini öyrədən biliklər (məsələn: "gənc biznesmen", "kitabxana mühəndisi", "kitabxana dizayneri", "kitabxana arxitektoru", "neft kəşfiyyatçısı", "gənc təbiətşünas", "gənc fermer") aşılayan iş metodlarını tətbiq etməlidir.

Qeyd etmək lazımdır ki, peşənin, ixtisasın öyrədilməsi təkcə ali məktəbin üzərinə düşməməlidir. Ali və orta ixtisas məktəbləri peşənin, ixtisasın ali dərəcələrini müəyyən edir və bu istiqamətdə tədris gedir. Nəzərə alsaq ki, respublikada ali təhsil müəssisələrinin sayı həddən çoxdur, özəl ali məktəb müəssisələrinə daxil olmaq çox da çətin deyil və nəticədə yeniyetmə gənclərin əksəriyyəti ali təhsil alır. Bəs onda müxtəlif peşələri ibtidai səviyyədə kim öyrənməlidir və necə öyrənməlidir? Müasir gəncliyin qarşısında duran əsas problemlərdən biri məhz budur. Yaxın keçmişdə ali məktəblərə həvəs göstərən abituriyentlər seçdiyi ixtisas üzrə minimal fəaliyyət göstərir və bunun göstəricisini təqdim edirdi. Məsələn, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olmaq istəyən abituriyent jurnalist fəaliyyəti haqqında,

kitabxanaçılıq-informasiya fakültəsinə daxil olmaq istəyən abituriyent kitabxanaçılıq fəaliyyəti haqqında sənəd təqdim edirdi. Təbii ki, peşə oriyentasiyasının formalaşmasına təsir edən bu amillər bu gün də aktual olmalıdır.

Uşaq və gənclərə xidmət edən kitabxanalar müasir cəmiyyətin tələblərinə uyğun olaraq ənənəvi metodlardan istifadə edərək peşəyönümlü fəaliyyət göstərməlidir. Uşaqların yaş qrupları üzrə peşə yönümlü işdə əyani formada daha çox əhəmiyyət kəsb edir. F.Köçərli adına Respubllika Gənclər Kitabxanasının iş təcrübəsində peşə oriyentasiyası istiqamətində qurulan iş uşaq və gənclərin peşə secməyinə müəyyən qədər istiqamət verir. Uşaq və gənclərə xidmət edən kitabxanaların peşə seciminə maraq yaratma metodu səciyyəvi olur. Müxtəlif peşələrlə, alətlərlə, peşə avadanlıqları ilə bağlı əyani və şifahi təbliğat kitabxanalarda daim təşkil olunur. Bu istiqamətdə aparılan sistemli iş gənclərə təlim marağını, qabiliyyət marağı və meyllərini cəmiyyətin tələbinə uyğun surətdə qurmağa, peşə seçimində daha diqqətli olmağa kömək edir.

Peşə-ixtisas əmək fəaliyyətinin elə bir növüdür ki, onun icrası üçün insan xüsusi qabiliyyətlərə, bilik, bacarıq və vərdişlərə malik olmalıdır. Odur ki, peşə oriyentasiyası və peşə seçimi ilə əlaqədar bütün fəaliyyət professiyaya əsaslanmalıdır. Bunun davamı kimi uşaq və gənclər kitabxanaları peşə yönümilə bağlı aşağdakı iki istiqaməti əsas meyar kimi nəzərdə tutulmalıdır.

- hər bir oxucunun peşə yönümünə istiqamət vermək;
- oxucuya öz "mən" ini daha qabarıq təzahür etdirməyə, şəxsi ləyaqətini daha artıq inkişaf etdirməyə ruhlandıran peşəni seçməsinə kömək etmək.

Göstərdiyimiz bu meyarları təmin etmək baxımından uşaq və gənclər kitabxanaları səmərəli iş görməlidir.

Uşaq və gənclər kitabxanaları hər şeydən əvvəl öz oxucularını müasir dövrün tələblərinə uyğun ən yeni peşələr və ixtisaslarla tanış etməli, onların gələcəkdə fəaliyyət göstərəcəkləri peşə, ixtisas sahəsində "özünü" tapmağı, peşəyə səmimi münasibət bildirməyi formalaşdırmalıdır. Bu çox vacibdir. Çünki bəzən gəncin kütləvi motivlər əsasında seçdiyi peşə sonralar onu qane etmir, o peşmançılıq hissi keçirir, gec də olsa seçiminin düzgün olmadığını başa düşür, ən dəhşətlisi isə budur ki, həyatda öz yerini tapa bilmir. Bu neqativ halların aradan qaldırılması üçün kitabxanının bütün daxili iş prosesində peşə oriyentasiyasının nəzərə alınması özünü büruzə verməlidir. İlk növbədə oxucunun peşə marağının öyrənilməsi, sonra peşə və ixtisasla bağlı kitabxana təbliğatının təşkili və s. məsələlər. Uşaq və gənclərə xidmət edən kitabxanalarda bu istiqamətdə aparılan təcrübi iş müəyyən nəticələr verir. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında təşkil edilmiş "Bacarıqlı əllər" klubu, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında yaradılan "Pakizə qızlar" klubu və s. bu kimi uşaq və gənclər birliklərinə kitabxana təbliğatı vasitəsilə müxtəlif peşələrə dair əyani və şifahi informasiya verilir.

Bir cəhəti qeyd etmək lazımdır ki, elmin məhsuldar qüvvəyə çevrilməsi üçün hər bir mütəxəssisin öz ixtisas və peşəsinin elmi məzmununu dərk etməsi, əməli fəaliyyətində nəzəriyyə ilə praktikanın əlaqəsinin tətbiqi vacibdir. Bu işin təşkilində isə kitabxanalar həlledici rol oynaya bilir. Öz peşəsinə dair ədəbiyyata müntəzəm surətdə müraciət etmək bütün oxucular üçün xarakterik xüsusiyyətdir. Yəni hər bir gənc oxucu öz ixtisas peşəsinə dair yeniliklərdən xəbər tutmaq, əlaqədar ixtisaslar haqqında müəyyən təsəvvür əldə etmək istəyir.

Uşaq və gənclərin müxtəlif oxucu qruplarının peşə mütaliəsi üzrə sorğularını ödəmək sahəsində kitabxanaların əsas vəzifəsi ölkədə və eləcə də dünyada elmi və texniki tərəqqinin nailiyyətləri və perspektivləri yeni peşələrin mənimsənilməsi elmi axtarış və istehsalat prosesində meydana çıxan konkret informasiya sorğularının ödənilməsi müsir informasiyalaşdırılmış cəmiyyətin təlabatına uyğun qurmaqdan ibarətdir.

Beləliklə, uşaq və gənclərə xidmət edən kitabxanalar Azərbaycan Respublikasında dövlət gənclər siyasətini daha da inkişaf etdirmək, uşaq və gəncləri gələcək dövlət idarəciliyində aparıcı yerlərdən birini tutan qüvvəyə çevirmək və onların sosial-iqtisadi peşə və məişət problemlərinin həllini təmin etməyə çalışmalıdır. "Azərbaycan gəncliyinin dövlət proramı" gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək üçün sosial-iqtisadi və təşkilati-hüquqi şərait yaratmışdır.

## ƏDƏBİYYAT

*1.Xələfov A.A. İnformasiya cəmiyyəti və kitabxana işi // Bakı Universiteti: Humanitar elmlər siyahısı.- B.: 2004.- № 3.- s. 316-327*

*2.Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik (üç cilddə) h. 1-2.- B., 2001.- 400 s.*

*3.Rzayev S.M. Kitabxana xidməti: Dərslik. - B.: Turan evi, 2009.- 337 s.*

*4.Rüstəmov F.A, Dadaşova T.Y. Ali məktəb pedaqogikası: Dərslik. - B: Nurlan, 2007.- 568 s.*

## РОЛЬ БИБЛИОТЕК В ПРОФЕССОНЛЬНОЙ ОРИЕНТАЦИИ ДЕТЕЙ И ЮНЕШЕСТВО

Э.Ю.АХМЕДОВ

## РЕЗЮМЕ

*В статье определена роль библиотек в профессонльной ориентации детей и юнешества.*

# THE ROLE OF LIBRARIES IN THE PROFESSIONAL ORIENTATION OF CHILDREN AND YOUTH

**E.Y.AHMADOV**

## SUMMARY

*The article deternunes the role of libraries in the professional orientation of young and children.*